Azərbaycan

4 avqust 2023-cü il

# Azərbaycanın enerji potensialı getdikcə diqqəti daha çox cəlb edir

## Bunu Serbiyanın "RTS" radio-televiziya kanalında yayımlanan material da təsdiqləyir

**Azərbaycan və Serbiya arasında iqtisadi əlaqələrin genişləndirilməsi, hər iki ölkənin prezidentlərinin qarşılıqlı səfərləri, Bakıda, Belqradda, eləcə də bir sıra beynəlxalq tədbirlərdə görüşlər zamanı müzakirə olunan məsələlər münasibətlərin getdikcə daha da inkişafını təsdiqləyir. Enerji sahəsində əməkdaşlıq bu bağlılığı xeyli artırır.**

Elə bu yaxınlarda Serbiyanın "RTS" radio-televiziya kanalında Azərbaycanın enerji resurslarının bu ölkəyə mümkün idxalının əhəmiyyətindən bəhs edən reportaj yayımlanıb. Materialda vurğulanıb ki, zəngin enerji ehtiyatlarına malik Azərbaycanla Serbiya arasında strateji tərəfdaşlıq mövcuddur. İndiyədək iki ölkə arasında 40-dan çox beynəlxalq müqavilə imzalanıb. 2021-ci ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 56 milyon ABŞ dolları təşkil edib. Serbiya ilə Azərbaycan arasında yol infrastrukturu sahəsində də intensiv əməkdaşlıq həyata keçirilir.

Serbiya Azərbaycanla ikitərəfli iqtisadi əməkdaşlığın həmçinin energetika sahəsində daha da inkişaf etdirilməsinə maraq göstərir. Serbiyanın yüksəksəviyyəli rəsmiləri "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının hər il Bakıda keçirilən iclaslarında mütəmadi olaraq iştirak edirlər.

2022-ci il iyunun 1-də Serbiya Baş nazirinin müavini, mədən və energetika naziri Zorana Mixayloviçin ölkəmizə səfəri çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında energetika və mədənçilik sahələrində əməkdaşlığa dair Saziş" imzalanıb.

Keçən il oktyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Aleksandar Vuçiç Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilmiş Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimində iştirak ediblər. Tədbirdə çıxış edən Serbiya Prezidenti bildirib: "... Layihə Serbiya üçün də vacib əhəmiyyət kəsb edir. Deməliyəm ki, dostumuz İlham Əliyevin iştirakı olmasaydı, bizim hər birimiz üçün qaz, eləcə də elektrik enerjisi təchizatının şaxələndirilməsinə ümid etmək asan olmazdı".

Hazırda inşası davam edən Bolqarıstan-Serbiya İnterkonnektoru istismara verildikdən sonra Azərbaycan qazının Serbiyaya da nəql edilməsi mümkün ola bilər.

Xatırladaq ki, keçən ilin noyabr ayında Prezident İlham Əliyevin Serbiyaya səfəri zamanı iki dövlət başçısı bir çox vacib məsələləri müzakirə etmiş, Birgə Bəyanat, strateji tərəfdaşlıq və müttəfiqlik haqqında memorandum imzalamışlar. Başqa sözlə, əməkdaşlığı yeni müstəviyə qaldırmışlar. Bu məsələlər arasında enerji sahəsində əməkdaşlığın necə aparılması məsələsi də özünə yer almışdır. Serbiya Prezidenti Aleksandar Vuçiç bəyanatında demişdir: "Qazın istehsalı və ixracına gəldikdə, Azərbaycan qüdrətli ölkədir, yeddi, səkkiz və on ildən sonra Azərbaycan 35 milyard kubmetrdən daha çox qaz ixrac edəcək. Bu gün qaz ixracı təxminən 22 milyard kubmetr təşkil edir. Bu həcmin yarısından çoxu Avropa ölkələrinə nəql olunur. Məhz buna görə biz Serbiya və Bolqarıstan arasında interkonnektorun yaradılması üzərində çalışırıq ki, Bakıdakı dostlarımızın ixrac etdiyi əhəmiyyətli qaz həcmlərini təchiz edə bilək".

Hazırda Azərbaycan 6 ölkəyə qaz ixrac edir. Yaxın vaxtlarda onların sayının 10-a çatacağı gözlənilir. Lakin bu da son hədəf deyil. Gələcəkdə ölkəmizdən mavi yanacaq alan ölkələr sırasında Serbiyanın da olacağı mümkündür. Həm də bu ölkə Azərbaycandan təkcə qaz yox, "yaşıl enerji" də alacaq. Bu barədə söhbətlər, müzakirələr aparılıb, variantlar araşdırılıb.

Məlumdur ki, keçən il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Serbiya Prezidenti bu layihə bağlı belə deyib: "Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən böyük bir Avropa layihəsi var. Biz Avropadan olan tərəfdaşlarımızın bu layihəyə qoşulmasını müzakirə edəcəyik. Çünki burada elektrik xətti suyun altından çəkiləcək. Xətt Qara dənizin altından keçir ki, bizim paylayıcı şəbəkə Rumıniya və Macarıstanın paylayıcı şəbəkəsinə müvəffəqiyyətlə qoşula bilsin, nəticədə biz gələcəkdə təhlükəsiz şəkildə elektrik enerjisini ala bilək və ölkəmizin elektrik enerjisi ilə bağlı tam təhlükəsizliyini təmin edək. Bu, həmçinin ölkəmizdə sənaye istehsalının genişlənməsi və vətəndaşlarımızın artan ehtiyacları ilə bağlıdır. Bizə bu enerji təhlükəsizliyi lazım olacaq və biz Azərbaycandan olan dostlarımıza, xüsusilə Prezident Əliyevə buna görə minnətdarıq".

2022-ci ildə Serbiya Prezidentinin də ölkəmizə səfəri oldu. Bu səfər çərçivəsində dekabrın 21-də hər iki dövlət başçısı bəyanatla çıxış etdi. Prezident İlham Əliyevin həmin bəyanatında deyilir: "Təbii ki, energetika sektoru əməkdaşlığımızın bir hissəsidir. Son vaxtlar bu sahə daha böyük əhəmiyyət kəsb edir. Azərbaycanın təbii resursları artıq müxtəlif istiqamətlər üzrə ixrac edilir, həmçinin Avropa qitəsinə, o cümlədən Serbiyaya qonşu olan ölkələrə. Həm təbii qaz, həm elektrik enerjisi ilə əlaqədar əməkdaşlıq üçün imkanlar var, müvafiq danışıqlar aparılmışdır. Gələn ildən başlayaraq Azərbaycanın elektrik enerjisinin Serbiyaya ixrac edilməsi üçün əminəm ki, əməli addımlar atılacaqdır".

Təsadüfi deyil ki, bu günlərdə Serbiyanın "RTS" radio-televiziya kanalında yayımlanan materialda da Azərbaycanın "yaşıl enerji" sahəsində zəngin potensiala malik olduğu vurğulanıb. Qeyd olunub ki, artıq Macarıstan, Rumıniya kimi bir çox Avropa ölkəsi Azərbaycan ilə "yaşıl enerji"nin istehsalı və nəqlinə dair əməkdaşlıq edir. Serbiya da Azərbaycanın təbii qaz və elektrik enerjisi ilə bağlı böyük potensiala malik olduğunu görür və gələcəkdə bu resurslara ümid bəsləyir. İki ölkə arasındakı mövcud siyasi əməkdaşlıq, şübhəsiz ki, bu sahədə sazişlərin imzalanmasının, o cümlədən Azərbaycandan elektrik enerjisinin idxalı ilə bağlı danışıqların əsasını təşkil edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***